AZƏRBAYCAN XƏBƏRLƏRİ

# Yaxınları: Sahib Məmmədzadə karsa salınıb, aclıq aksiyası keçirir

1 saat öncə




'Məni təpiklədilər ki...' - Daşkəsəndə AXCP fəalının yaxınları onun həbsinə etiraz edirlər (Arxiv)

Azərbaycan Xalq Cəbhəsi Partiyası (AXCP) Daşkəsən rayon şöbəsinin sədri **Sahib Məmmədzadə**nin 10 saylı Cəzaçəkmə Müəssisəsində cərimə kamerasına (kars) salındığı və buna etiraz olaraq aclıq aksiyasına başladığı bildirilir.

Yaxınlarının iyulun 9-da verdiyi məlumata görə, fəal artıq dörd gündür aclığı davam etdirir. Onun məhkumların gündəlik düzülüşünə corabsız çıxdığı əsası ilə cəzalandırıldığı iddia olunur.

Məsələ ilə bağlı 10 saylı Cəzaçəkmə Müəssisəsi və Penitensiar Xidmətdən münasibət öyrənmək mümkün olmayıb. Bununla belə, Penitensiar Xidmət bir qayda olaraq bildirir

ki, qurumun tabeliyindəki müəssisələrdə bütün məhkumlarla tam qanun çərçivəsində davranılır.

S.Məmmədzadə 2024-cü il martın 18-də bacısı ilə birlikdə yük maşınında mal-qaranı yaylağa apararkən saxlanılıb. Rəsmi ittihama görə, onun üzərindən 23 qram narkotik vasitə aşkarlanıb və faktla bağlı Cinayət Məcəlləsinin 234.4.3-cü maddəsi ilə cinayət işi açılıb. İttihamı rədd edən AXCP funksioneri isə məhkəmədəki ifadəsində bu cinayət işini "tamaşa" adlandırıb. Gəncə Ağır Cinayətlər Məhkəməsi 2024-cü il dekabrın 10-da S.Məmmədzadəni 6 il 6 ay müddətinə azadlıqdan məhrum etsə də, 2025-ci ilin martında apellyasiya instansiyası cəzanı 3 il 6 aya endirib.

## Xatırlatma

Son illər AXCP-nin bir çox üzvü vaxtaşırı inzibati və cinayət qaydasında həbs edilir. Hazırda partiyanın 20-yə yaxın fəalı, o cümlədən AXCP sədri Əli Kərimli uzunmüddətli həbsdədir. Həmin şəxslər fərqli ittihamlarla üzləşsələr də, partiya rəhbərliyi həbslərin sırf siyasi sifariş daşıdığını bəyan edir.

Hüquq müdafiəçilərinin son hesabatlarına görə, hazırda Azərbaycan həbsxanalarında ümumilikdə 328 siyasi məhbus var. Rəsmi Bakı isə ölkədə siyasi fəaliyyətə görə həbslərin olması barədə iddiaları rədd edir və həmin şəxslərin sırf törətdikləri konkret cinayət əməllərinə görə mühakimə olunduqlarını vurğulayır.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur